Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 51-55**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 51-55**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 51-55**

UOT 78.01

Qəribova Arifə Hacıbaba qızı
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68

MUSİQİ TƏRBİYƏSİNƏ RUSİYA PEDAQOQLARININ BAXIŞLARI

Açar sözlər: *musiqi, tərbiyə sistemləri, marş, dialoq, inkişafedici mühüt*

Hər dövrdə, o cümlədən də müasir zamanda gənclərin hərtərəfli inkişafında musiqi tərbiyəsinin rolu böyük olmuşdur. Müasir musiqi müəllimi müxtəlif tərbiyə sistemləri ilə tanış olmalıdır ki, onları öz işində ustalıqla və yaradıcı şəkildə tətbiq edə bilsin. Bununla əlaqədər olaraq, biz bu məqaləmizdə Rusiyada şöhrət tapmış və geniş yayılmış musiqi tərbiyəsi sistemlərini araş-dırmışıq, bunlar: D.Kabalevski sistemi, Nikitinlər ailəsinin erkən tərbiyə sistemi və P.Tülenyevin tərbiyə sistemi.

А.Г.Гарибова

ВЗГЛЯДЫ РОССИЙСКИХ ПЕДАГОГОВ НА МУЗЫКАЛЬНОЕ ВОСПИТАНИЕ

Ключевые слова: *музыка, системы воспитания, марш, диалог, развивающая среда*

Во все времена, в том числе и в современную эпоху роль музыки во всестороннем воспитании детей огромна. Современный учитель музыки должен быть в курсе различных систем воспитания, чтобы мастерски и творчески их применять в своей работе. В этой связи мы в своей статье рассмотрели широко известные и популярные в России системы музыкального воспитания, а именно: систему Д. Кабалевского, систему семьи Никитиных и систему П.Тюленева.

A.G.Garibova

VIEWS OF RUSSIAN TEACHERS ON MUSICAL EDUCATION

Key word: *music, education systems, march, dialogue, developing environment*

At all times, including in the modern era, the role of music in the comprehensive education of children is enormous. A modern music teacher should be aware of various educational systems in order to apply them skillfully and creatively in their work. In this regard, in our article we examined the systems of musical education that are well-known and popular in Russia, namely, the system of D.Kabalevsky, the system of the Nikitin family, and the system of P.Tulenev.

Hər dövrdə, o cümlədən də müasir zamanda gənclərin hərtərəfli inkişafında musiqi tərbiyəsinin rolu böyük olmuşdur. Biz demirik ki, bütün uşaqlar professional musiqiçi olmalıdır, yox. Lakin artıq bir sıra qabaqcıl alimlər tərəfindən sübüta yetirilmişdir ki, lap kiçik yaşlarından musiqi ilə məşğuliyyət uşaqların təfəkkürünü, yaradıcı qabiliyyətlərini inkişaf etdirir, cünki onun nəticəsində beyində tamamilə başqa tipli neyron əlaqələr yaranır.

Müasir musiqi müəllimi müxtəlif tərbiyə sistemləri ilə tanış olmalıdır ki, onları öz işində ustalıqla və yaradıcı şəkildə tətbiq edə bilsin. Bu mənada maraqlı, müasir dərsi yalnız müasir və savadlı müəllim verə bilər. Cünki "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"-nda göstərildiyi kimi, "Müəllim amili təhsilalanın öyrənməsi və inkişafı, nailiyyətlərinin monitorinqi prosesində həlledici rol oynayır. Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır". Həm qabaqcıl təcrübənin, həm də xarici ölkələrin təhsil sahəsindəki innovasiyalarının öyrənilməsi məqsədilə sistemli və ardıcıl pedaqoji araşdırmaların aparılması vacibdir. Bu təcrübələrin hər birinin müasirliyi, səmərəliliyi müəyyənləşdirilirək, forma və məzmun cəhətdən yeniləşdirilib onların bizim ölkə şəraitində tətbiq edilməsi faydalıdır. Bununla əlaqədər olaraq, biz bu məqaləmizdə Rusiyada şöhrət tapmış və geniş yayılmış musiqi tərbiyəsi sistemlərini araşdırıb təhlil etmək istəyirik.

Dmitri Kabalevski sistemi. Görkəmli rus-sovet bəstəkarı və musiqiçisi D.Kabalevski həm də parlaq pedaqoji istedada malik idi və uzaqgörənliyi ilə seçilirdi. O, gələcəyi çox yaxşi duya bilmişdir. Hələ 60-cı illərdə Beynəlxalq musiqi tərbiyəsi cəmiyyətinin sədri olduğu dövrdə D.Kabalevski ilk olaraq yaxınlaşan təhlükəni hiss etmişdir. O, musiqinin komersiyalaşması və şou-biznesə çevrilməsi dövrünün yaxınlaşdığı barəsində və gənclərin aşağı səviyyəli, bayağı musiqininn təsiri altına düşməsindən danışırdı. Bu gün biz bunların doğru olduğunu müşahidə edirik. Etiraf etməliyik ki, klassik və hətta xalq musiqisi böyüməkdə olan nəslin əksəriyyət hissəsi tərəfindən darıxdırıcı və heç kəsə gərək olmayan musiqi kimi qəbul olunur, onlarda diskomfort yaradır. Bəs bunun qarşısını necə almaq olar?

Kabalevski musiqi dərslərinin acınacaqlı vəziyyətdə olduğunu çox gözəl bilirdi. Bu dərslər çox darıxdırıcı və maraqsız idi. Ən başlıcası isə, bunlar həqiqi musiqi sənətindən, həyatdan ayrılmış, parçalanmış vəziyyətdə idi. Dərslər və

musiqi sənəti sanki iki paralel dünya kimi mövcud idi və praktiki olaraq bir birilə kəsişmirdi və əlaqəli deyildir.

Kabalevski musiqini və dərsləri birləşdirməyə cəhd göstərdi və bu iş alındı. Onun sisteminin məğzi nədə idi? Kabalevskinin fikrincə, musiqi özünün üç tərkib hissəsi, üç təməli üzərində yerləşir – mahnı, rəqs və marş. Bunlar həmin o iki dünyanı bir birilə əlaqələndirən bağlardır. Çünki, bir tətəfdən ən mürəkkəb musiqi əsərlərinin təməlində mahnı, rəqs və marş durur, digər tətəfdən isə onlar bütün məktəbəqədər yaşlı uşaqların musiqi təcrübəsinə daxildir. Bu zaman P.Çaykovskinin "Uşaq albomu"ndan "Taxta əsgərlərin marşı" nəinki sadəcə olaraq konkret bir marş, lakin bir çox marşlardan biri olur. Uşaq bunu anlasa, onda istənilən mürəkkəb əsərdə də (məsələn, P.Çaykovskinin 6-ci simfoniyasının 3-cü hissəsində) onu artıq tanış, bildiyi bir şey kimi qəbul edər. Həmin proses mahnı və rəqsdə də baş verir.

Bəstəkar yazır: "Musiqi fikrinin hərəkəti ətraf mühitdən qidalanaraq, davam edəcək və daha da güclənəcək". D.Kabalevski sisteminin digər vacib istiqaməti – dialoq – biz bunu Sokrat metodu adlandırardıq. Kabalevskinin fikrincə, uşaqlar bu və ya digər nəticəyə uzun-uzadı söhbət, az qala yatacaqları mühazirə əsnasında deyil, lakin özləri düşünərək və danışaraq gəlirlər. Müəllimin istiqamətləndirici sualları burada vasitə kimi çıxış edir. Məsələn:

– Mahnının yaranması üçün nə lazımdır? (müəllim)
– Bəstəkar. (uşaq)
– Yenə nə lazımdır?

Uşaq fikirləşir. Bu zaman ona hər hansı bir melodiyanı sözlərsiz zümzümə etmək olar.

– Burda nə çatışmır?
– Sözlər.
– Düzdür. Deməli, mahnını bəstəkarla birgə kim yaradır?
– Bəs mahnını ifa etmək üçün kim lazımdır?
– Müğənni. Musiqiçi.
– Düzdür. Nə cür mahnılar mövcuddur?

Müəllim uşaq mahnısını oxuyur. – Bu nə cür mahnıdır, böyüklər ya uşaqlar üçün?

– Uşaq mahnısıdır.
– Yenə hansı mahnılar olur?
– Böyüklər üçün.
– Başqa? Körpələrə yuxuya getmək üçün hansı mahnıları oxuyurlar?
– Laylay.
– Bəs müharibə barəsində mahnılar?
– Hərbi.

Və s. və i.a. Böyüklərin köməkçi sualları ilə uşaqların özləri tərəfindən tapılan cavablar, musiqi barəsində bu səpkidə söhbətlər bir möcüzə kimi musiqi dərsini daha maraqlı edə bilir.

Nikitinlər ailəsinin erkən tərbiyə sistemi. Yeddi uşaq tərbiyə etmiş Boris və Yelena Nikitinlar tərəfindən yaradılan erkən tərbiyə sistemi Rusiyada artıq 50 ildən artıq populyardır. Aşagıda bu sistemin əsas müddəalarını araşdıraq:

1. Uşağın həyatının birinci ilinin böyük əhəmiyyəti var. Nikitinların öz sözüylə desək – "işə salınma ili". Doğum günündən bir yaşa kimi Nikitinlar bütün istiqamətləri, tərbiyə prosesinin mexanizmlərini "işə salırdılar". Bütün ata-analar üçün adi olan "qoy biraz böyüsün" fikri (bir qayda olaraq bu "biraz" uzun illərə çevrilir) bunlar üçün qəbul olunmaz idi. Onların prinsipi – hər şey bacardıqca tez başlanmalı, bu günün işi sabaha saxlanmamalı – sabah artıq gec ola bilər.

2. Basqı etməmək, maneə yox, yardım etmək. Bu əsas prinsip olduqca nikbin səslənir. Nikitinların fikrincə, valideynlərin əsas vəzifəsi – uşaqlar üçün imkanlar yaratmaqdır (elmi dillə desək, inkişafedici mühüt təşkil etməkdir). Sonra isə uşaqlar özləri yoluna düşəcək.

3. Aktiv fiziki inkişaf. Evdə idman avadanlığın bolluğu, ayaq yalın yerimə, soyuq su ilə bərkimə və s. İlk baxışdan bu müddəanın musiqi ilə heç bir əlaqəsi olmadığı görünsə də, lakin qeyd etməliyik ki, tərbiyənin bütün istiqamətləri, o cümlədən də musiqi tərbiyəsi yalnız uşaqların fiziki sağlamlıqları olduğu halda bir məna daşıyır.

4. Valideynlərin fəal marağı. Nikitinların fikrincə, ən mühüm məqam odur ki, ana və atanı heç bir müəllim əvəz edə bilməz. Başqa sözlə, valideynlərin maraq səviyyəsi nə qədər yüksək səviyyədə olarsa, bir o qədər də yüksək nəticələr əldə etmək olar.

Pavel Tülenyev sistemi. Nikitinlərin davamçıları bütün dünyada vardır, o cümlədən də Rusiyanın özündə. P.Tülenyevin "Dünya" kitabında bunların fikirləri öz təsdiqini tapır. Onun metodikasının əsas prinsiplərini araşdıraq:

1. Musiqi tərbiyəsi uşaq doğulandan başlanmalıdır. Bu məsələdə Tülyenev Qlen Domanın (Filadelfiya, İnsan potensial imkanlarının inkişafı institutunun direktoru) və digər fizioloq-alimlərin tədqiqatlarına əsaslanır. Bunların fikrincə doğuşdan 3 yaşına qədər beyin çox sürətlə inkişaf edir, əqli imkanlar bu dövrdə unikaldır. Domanın və Tülenyevin fikrincə, üç yaşa qədər oynaya-oynaya uşağın mənimsədiyini (xarici dillər, oxuma-yazma, musiqi alətlərində çalma) sonralar onlar çox böyük çətinliklə əldə edir.

2. Körpənin beşiyinin yanında musiqi aləti durmalıdır ki, uşağın əlləri ona toxuna bilsin. Sintezator olsa, daha yaxşıdır. Tülenyevin fikrincə, musiqi səsləri ilə bu cür erkən tanışlıq körpəyə müsbət təsirini göstərəcəkdir.

3. Not və klaviaturanı təsvir edən kartlar. Bu kartlarda təkcə notlar deyil, həmçinin bu notların çalındığı klaviaturanın şəkilləri var ki, bunlar müəllifin fikrincə körpənin 6-7 aylığından onun gözü önündə olmalıdır. Beləliklə də, notla çalğı belə uşaq üçün erkən oxu bacarığı kimi adi hala çevriləcək.

4. Məşğələnin vaxtını və onun müddətini uşaq özü müəyyən etməlidir. Valideynlər, lazımi inkişafedici oyunları seçərək uşağın inkişafı üçün şərait yaradır-

lar**.** Lakin bu oyunları nə vaxt və hansı müddət ərzində istifadə etməni uşaq özü müstəqil olaraq müəyyənləşdirir. Ümumiyyətlə isə, tərbiyə prosesində valideynlərin bilavasitə iştirakı, Tülenyevin fikrincə, daha az əhəmiyyətlidir, nəinki digər sistemlərdə.

5. Artıq heç bir əşya lazım deyil. Uşağı əhatə edən mühitdə onun fikrini yayındıran, diqqətini pozan heç bir şey olmamalıdır. Xüsusilə, Tülenyev artıq oyuncaqlardan və uşağın inkişafı ilə heç bir əlaqəsi olmayan əşyalardan qaçınmağı məsləhət bilir.

6. Uşağı musiqi bəstələməyə sövq etmək gərəkdir. Uşaq, uydurараq hər hansı musiqi çalsa, onu diqqətlə dinləyib pozitiv qiymətləndirmək lazımdır – bu körpənin yaradıcılığa doğru yoludur.

Beləliklə, apardığımız araşdırma belə nəticə çıxarmağa imkan verir ki, musiqi tərbiyəsi ümumi tərbiyənin vacib bir komponentidir. Savadlı və kreativ müəllim bütün ölkələrin qabaqcıl təcrübəsi barəsində məlumatlı olmalıdır, bu təcrübəni öz işində yaradıcılıqla istifadə etməyi bacarmalıdır.

Elmi yenilik: Məqalədə Rusiyada şöhrət tapmış və geniş yayılmış musiqi tərbiyəsi sistemləri araşdırılmışdır ki, pedaqoqlarımız bunlardan bəhrələnərək, öz işlərində tətbiq etsinlər. Bunların sırasında: D.Kabalevski sistemi, Nikitinlər ailəsinin erkən tərbiyə sistemi və P.Tülenyevin tərbiyə sistemi yer tutur**.** Nikitinlər ailəsinin və P.Tülenyevin tərbiyə sisteminə ölkəmizdə ilk dəfə olaraq baxılır.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, www. prezident.az.
2. Д.Б. Кабалевский. Как рассказывать детям о музыке? Москва, 1977
3. Методика Никитиных в действии. https://fulledu.ru, 2017
4. Борис и Лена Никитины. Мы и наши дети. Москва, 2015
5. П.В. Тюленев. «Знать ноты раньше, чем ходить или как вырастить гения», Москва, 2003
6. Бородина Е.А. Музыкальная педагогика и педагогика искусства. Концепции XXI века. Москва, 2018

Məqalənin redaksiyaya daxil olma tarixi: 10.05.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.05.2019
Məqalənin çapa qəbul olunma tarixi: 12.07.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.